# Qəbələdə qanvermə aksiyası keçirilmişdir

Qəbələ rayon Mərkəzi Xəstəxanası Publik Hüquqi Şəxsində 28 dekabr 2021-ci il tarixində Respublika Qan Bankı tərəfindən qanvermə aksiyası keçirilmişdir. Qanvermə aksiyasında rayon Mərkəzi Xəstəxanasının işçiləri və könüllülər iştirak etməklə 77 nəfər donor olaraq qan vermişdir. Toplanılan qan irsi qan xəstəliyindən əziyyət çəkən xəstələr üçün nəzərdə tutulmuşdur.



# Azərbaycan diasporu

Təqribi sayı 50 milyon nəfər olan dünya azərbaycanlılarının 10 milyondan çoxu hazırda mühacirətdə yaşayır. Dünyanın 5 qitəsində məskunlaşan azərbaycanlılar siyasi, iqtisadi və sosial-mədəni fəaliyyəti yaşadıqları ölkələr, oradakı şərait, mənəvi dəyərlər kimi müxtəlifdir.

XX əsrin əvvəllərinə qədər Azərbaycandan xaricə mühacirət edən azərbaycanlıların şəxsiyyət vəsiqələrində "rus təbəəsi" yazılması onların milliyətinin də "rus" kimi təqdim edilməsi ilə nəticələnmişdir. O dövrlərdə qonşu Rusiyaya köçən azərbaycanlılar "tatar", Türkiyədə məskunlaşanlar isə "Azərbaycan türkü" kimi tanınır və qeydə alınırdı. Müasir İran ərazisində yaşayan azərbaycanlıların isə "İran təbəəsi" kimi təqdimatı prosesi gedirdi.

Belə arzuolunmaz vəziyyət xarici ölkələrdə yaşayan azərbaycanlıların rus, türk və fars diasporlarının tərkib hissəsi kimi qəbul edilməsinə səbəb olmuş, nəticədə azərbaycanlılar başqa xalqların diasporları içərisində assimilyasiya olunmaq təhlükəsi ilə üzləşmişlər. Lakin problemlərə və çətinliklərə baxmayaraq, azərbaycanlılar hər zaman öz milli mənsubiyyətini, adət-ənənələrini, mənəvi-əxlaqi dəyərlərini qoruyub saxlamış, tarixi Vətənlə əlaqələrini itirməmişlər.

# Qızıl medalın sahibi ilə görüş




Qəbələ rayon Gənclər və İdman idarəsinin təşkilatçılığı ilə "Çempionumuz" sosial idman layihəsi çərçivəsində yunan-roma güləşi üzrə Dünya çempionu Mikayılov Ruhin Zahid oğlu ilə görüş keçirilmişdir.

Tədbiri giriş sözü ilə Gənclər və İdman İdarəsinin rəisi Fəxri Soltanov açaraq Azərbaycanda idmana göstərilən dövlət qayğısından, idmanın maddi-texniki bazasının ildən-ilə möhkəmləndirilməsindən və bunun nəticəsində əldə edilən nailiyyətlərdən danışmışdır.

Sonra təhsil şöbəsinin metodisti İbrahim Faxlulov çıxış edərək Təhsil şöbəsi tərəfindən idman sahəsində görülmüş işlər və qarşıda duran vəzifələr barədə məlumat vermişdir.

Daha sonra Ruhin Mikayılov tədbir iştirakçılarına özü haqqında məlumat verərək yunan-roma güləşi ilə kiçik yaşlarından məşğul olduğundan, idman həyatındakı nailiyyətlərindən, keçirdiyi görüşlərdən və Dünya çempionatında qızıl medal qazanması haqqında danışmışdır.

Görüşün sonunda iştirakçıların sualları cavablandırılmış və xatirə şəkilləri çəkilmişdir.

# Mükafatlandırma mərasimi

Qəbələ rayon Gənclər və İdman idarəsinin təşkilatçılığı ilə 28 dekabr 2021-ci il tarixində Qəbələ Rayon Heydər Əliyev Mərkəzində 2021-ci ilin yekunları ilə əlaqədar idmanın müxtəlif növləri üzrə nailiyyət qazanmış bir qrup idmançı və məşqçilərin mükafatlanma mərasimi keçirilmişdir.



Tədbirin açılış mərasimində rayon Gənclər və İdman İdarəsinin rəisi Fəxri Soltanov çıxış edərək tədbir iştirakçılarını salamlamış, 2021-ci il ərzində idarənin idman sahəsində keçirdiyi tədbirlərdən və respublika səviyyəli yarışlarda iştirakından danışaraq, tədbir iştirakçılarına qarşıdan gələn 2022-ci ildə də idman həyatlarında yeni-yeni uğurlar arzulamışdır.

Tədbirin sonunda dövlət idman siyasətinin uğurla həyata keçirilməsində səmərəli fəaliyyətinə görə bir qrup idmançı və məşqçilərə rayon Gənclər və İdman İdarəsinin diplom və xatirə hədiyyələri təqdim edilmişdir.

**Elçin OSMANOV.**
**Gənclər və idman idarəsinin aparıcı məsləhətçisi.**

# Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi polis orqanlarında orta rəis heyəti vəzifələrinə xidmətə qəbulla əlaqədar müsabiqə elan edir

Respublikanın şəhər, rayon polis orqanlarında (Naxçıvan Muxtar Respublikası, Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonu istisna olmaqla) polis sahə rəisi vəzifələrinə xidmətə qəbul ilə əlaqədar müsabiqə keçirilir.

Cəmi 50 vəzifənin komplektləşdirilməsi ilə əlaqədar keçirilən müsabiqə test imtahanından və müsahibədən ibarətdir. Test imtahanı - "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə"nin tələblərinə cavab verən namizədlərlə qanunvericilik aktları və nəzəri bilik sahələri üzrə test imtahanının proqramı, eləcə də məntiqi nəticə çıxarmaq qabiliyyətini əhatə edən suallar əsasında aparılır. Test imtahanından müvəffəqiyyətlə keçmiş iştirakçıların xidməti vəzifələrini yerinə yetirən zaman qanunvericilik aktlarını tətbiq etmək üçün bilik və bacarığı, ünsiyyət yaratmaq, özünü təqdimetmə bacarığı, təmkinliyi, fikir və rəyini ifadə etmək qabiliyyəti kimi xüsusiyyətləri Daxili İşlər Nazirliyinin Mərkəzi Müsabiqə Komissiyası tərəfindən keçirilən müsahibə zamanı qiymətləndirilir.

Müsabiqədə Azərbaycan Respublikasının dövlət ali təhsil müəssisələrində hüquqşünas ixtisası üzrə təhsil almış, yaşı 28-dək olan, həqiqi hərbi xidmət müddətini tam başa vurmuş, əvvəllər özü və yaxın qohumları məhkum olunmamış (ehtiyatsızlıqdan böyük ictimai təhlükə törətməyən cinayətlərə görə məhkum olunmuş yaxın qohumlar istisna olmaqla) "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə"də müəyyən olunmuş şərtlərə cavab verən Azərbaycan Respublikasının kişi cinsli vətəndaşları (daxili işlər və digər hüquq mühafizə orqanlarında zabit vəzifələrindən xaric edilmiş şəxslər istisna olmaqla) iştirak edə bilərlər.

Müsabiqə qaliblərinin təyinatlarından sonra onların xidməti iş yerləri Daxili İşlər Nazirliyinin Bakı, Sumqayıt şəhərlərində və Abşeron rayonunda yerləşən polis orqanlarına 5 il müddətində dəyişdirilməyəcəkdir.

Müsabiqədə iştirak etmək istəyən şəxslər 2021-ci il noyabr ayının 27-dən dekabr ayının 27-dək

elektron ərizə formasını və qısa anket məlumatlarını şəxsən dolduraraq elektron poçt vasitəsi ilə bki@mia.gov.az ünvanına Daxili İşlər Nazirliyinin Baş Kadrlar İdarəsinə göndərməlidirlər.

Elektron ərizələr Daxili İşlər Nazirliyində qeydiyyatdan keçirilərək namizədlər barədə məlumatlar Baş Kadrlar İdarəsi tərəfindən öyrənildikdən sonra müvafiq qərar qəbul edilir.

Namizədlər məlumatlandırıldıqdan sonra aşağıdakı sənədləri şəxsən təqdim etməlidirlər:

**şəxsiyyət vəsiqəsi;**
**ali təhsil haqqında diplom;**
**hərbi bilet;**
**əmək kitabçası (olanlar üçün);**

Təqdim olunmuş sənədlər əsasında şəxsin müsabiqədə iştirakı üçün zəruri sənədləşmə aparılır. Müsabiqədə iştirak edəcək şəxslərin sağlamlıq vəziyyəti və fiziki hazırlıq səviyyəsi daxili işlər orqanları əməkdaşları üçün müəyyən olunmuş normativlər üzrə yoxlanılır.

«Daxili işlər orqanlarında xidmətə qəbul olunmaq üçün namizədlərlə müsabiqənin keçirilməsi Qaydaları», test imtahanının proqramları və fiziki hazırlıq üzrə ödəniləcək normativlər aşağıda qeyd olunub.

Əlavə məlumat almaq üçün əlaqə telefonları:
(012) 590-93-51; (012)-590-97-42; (012) 590-92-37;
(012) 590-92-21, (012) 590-93-64, (012) 590-95-23.

# Daxili işlər orqanlarının orta rəis heyəti vəzifələrində xidmətə qəbul üzrə müsabiqənin test imtahanının proqramı

Daxili işlər orqanlarının orta rəis heyəti vəzifələrində xidmətə qəbul üzrə müsabiqənin test imtahanları mərhələsində namizədlər məntiqi nəticə çıxarmaq qabiliyyətini müəyyən edən sualları cavablandırmaqla yanaşı, aşağıdakı qanunvericilik aktları və nəzəri bilik sahələri üzrə mükəmməl hazırlıq nümayiş etdirməlidirlər:

Qanunvericilik aktları və nəzəri bilik sahələri:

Azərbaycan Respublikasının Konstitusiyası.

Dövlət və hüquq nəzəriyyəsi.

Cinayət hüququ.

Cinayət prosesi.

İnzibati hüquq.

Kriminalogiyanın əsasları.

BMT-nin «İnsan hüquqları haqqında» Ümumi Bəyannaməsi.

«Polis haqqında» Azərbaycan Respublikasının Qanunu.

«Əməliyyat-axtarış fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanunu.



QƏBƏLƏ
Qəbələ rayonunun ictimai-siyasi qəzeti

qəzetinə

2022-ci ilin birinci yarısı üçün abunə yazılışına başlanmışdır.

Yarımillik abunə qiyməti 15 manatdır.

*Qəzetimizə «Kapitalbank»ın Qəbələ filialında abunə yazılmaq olar.*

*Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.*

**Redaksiyanın ünvanı: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56 (rayon icra hakimiyyətinin inzibati binası, I mərtəbə).**

**Telefonlar: (024)205-19-14, (024)205-15-56, mob. (050) 318-90-24.**

«QƏBƏLƏ» qəzetinin reklam xidməti
205-19-14, 205-15-56

# İTMİŞDİR

Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti tərəfindən Qəbələ rayon Zarağan kənd sakini **Yusifov Tale Telman oğluna** məxsus torpaq sahəsinə aid AA № 580915 nömrəli **torpaq sahəsinin planı və ölçüsü** itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti tərəfindən Qəbələ rayon Zarağan kənd sakini **Yusifov Tale Telman oğluna** məxsus Hüquqların Dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın Dövlət reyestrindən **çıxarış** itdiyi üçün etibarsız sayılır.

Mingəçevir şəhər 39 nömrəli Texniki Peşə məktəbi tərəfindən 1981-ci ildə Qəbələ rayon Vəndam qəsəbə sakini **Əhmədov Əliyar Bəxtiyar oğluna** verilmiş 37 A 567 nömrəli **orta təhsil haqqında attestat** itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Respublikasının Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti tərəfindən Qəbələ rayonu Çarxana kənd sakini **Məmmədov Fikrət Fəzli oğluna** 12 iyun 2008-ci il tarixdə verilmiş inventar nömrəsi (406-21/96, reyestr nömrəsi 40601300516-10301) fərdi yaşayış evinin **Daşınmaz əmlakın texniki pasportu** itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Respublikası ƏMDK yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti tərəfindən Çarxana kənd sakini **Məmmədov Fikrət Fəzli oğluna** 17 iyun 2008-ci il tarixdə verilmiş MH seriyalı 0007685 nömrəli (reyestr nömrəsi 406013004516-10301) daşınmaz əmlakın **Dövlət reyestrindən çıxarış** itdiyi üçün etibarsız sayılır.

# ALLAH RƏHMƏT ELƏSİN!

"Qəbələ" qəzetinin kollektivi iş yoldaşları **Bibixanım İsayevaya** qardaşı
**ASİFİN**
vəfatı ilə əlaqədar kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.